# Azərbaycanın cənub-şərq bölgəsi arxeoloq Qüdrət İsmayılzadənin tədqiqatlarında

**2024-cü il oktyabr ayının 24-də Azərbaycan arxeologiyasının görkəmli nümayəndələrindən biri Qüdrət Seyfulla oğlu İsmayılzadənin 90 illik yubileyi tamam olur. O, təkcə Azərbaycan miqyasında deyil, eyni zamanda xaricdə də Azərbaycan elmini layiqli təmsil edən alimlərdən biri idi. Onun apardığı arxeoloji tədqiqatlar bu gün də öz aktuallığını saxlayır və Azərbaycan tarixinin mühüm elmi problemlərinin araşdırılmasında böyük əhəmiyyət kəsb edir. Alimin Qarabağ, Şərqi Zəngəzur və Azərbaycanın cənub-şərqində apardığı arxeoloji tədqiqatlar bir çox elmi yeniliklərlə nəticələnmişdir.**



Qüdrət İsmayılzadə ilk əmək fəaliyyətinə Yardımlı rayonunun Arus və Mirimli kəndlərində tarix müəllimi kimi başlasa da, sonralar bölgənin arxeoloji abidələri onun diqqətindən kənarda qalmamış və müxtəlif dövrlərdə onların elmi tədqiqatlara cəlb olunmasına da nail olmuşdur.

XX əsrin 60-cı illərindən başlayaraq Q.İsmayılzadə Muğan düzündə, Cəlilabad, Yardımlı, Lerik və Astara rayonlarında arxeoloji kəşfiyyat işləri aparmışdır. 1964-cü ildə bölgəyə onun rəhbərliyi altında kəşfiyyat xarakterli səfər zamanı ekspedisiya Mişarçayın sol sahilində iki çoxtəbəqəli eyniadlı yaşayış yerləri aşkarlayır və həmçinin Lənkəran ovalığında üzəri daş örtüklü kurqanlar da qeydə alır. Onun Azərbaycanın cənub-şərqində apardığı arxeoloji tədqiqatlar bölgənin erkən əkinçilik mədəniyyəti, qədim metallurgiyası, yarımköçəri yaylaq maldarlığı, sənətkarlığın inkişaf xüsusiyyətləri və qədim istehsal ənənələri ilə bağlı idi.

Professor Q.İsmayılzadə cənub-şərq bölgəsinin arxeoloji abidələrinin tədqiqinə yerli alimlərlə yanaşı, həm də xarici alimlərin də cəlb olunmasına fədakarlıqla çalışmışdır. Məhz bilavasitə onun təşəbbüsü ilə Qafqazın qədim metallurgiyası ilə məşğul olan alman arxeoloqu Andreas Şaxner XX əsrin 90-cı illərində Azərbaycanın cənub-şərq bölgəsinə səfər etmiş, Lənkəran, Lerik və Astara rayonlarındakı bir çox abidələrə baxış keçirmiş və yerli tarix-diyarşünaslıq muzeylərinin fondlarında olan arxeoloji materiallarla tanış olmuşdur.

Professor Q.İsmayılzadə elmlə təhsilin vəhdətinə diqqət yetirən alimlərdən idi. O, Bakı Dövlət Universiteti ilə yanaşı həm də XX əsrin 90-cı illərindən başlayaraq uzun müddət Lənkəran Dövlət Universitetində "Arxeologiya" və "Qədim dünya tarixi" fənlərindən mühazirələr oxumuş, bölgədə yerli arxeoloq və tarixçi alimlərin yetişdirilməsində böyük əməyi olmuşdur. Şübhəsiz ki, onun yaratdığı elmi-pedaqoji məktəb bundan sonra da daima yaşayacaq və gələcək nəsillər üçün işıq yolu olacaqdır.

**Samir KƏRİMOV**
**AMEA Lənkəran Regional Elmi Mərkəzinin aparıcı elmi işçisi, t.ü.f.d.**

**Anar AĞALARZADƏ**
**AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dosent**